Bacısını qaçıran oğlanı öldürərək körpüdən atdı

□□□□□□□□□□ -□□ □□□□
□□□□□□□□□□, 27 □□□□□□□□□□□□ 2016 17:25



Bakıda qətl törədilib.

Hadisə ötən gün Pirşağı qəsəbəsində qeydə alınıb. Qəsəbə sakini, 21 yaşlı Nurlan Quliyev qohumu, 23 yaşlı Maarif Quliyevi bıçaqlayaraq öldürüb.

AzVision.az -ın Report-a istinadən verdiyi məlumata görə, baş verən qətlin təfərrüatı məlum olub. Məlumata görə, 21 yaşlı Nurlan Quliyev dayısı oğlu Mahir Quliyevi qəsəbədə yerləşən körpünün yaxınlığına çağırıb. Belə ki, M.Quliyev bir həftə əvvəl evlənmək məqsədi ilə N.Quliyevin bacısını qaçırıb.

N.Quliyev körpünün üzərində dayısı oğlu ilə əvvəlcə mübahisə edib. Daha sonra o, M.Quliyevin

ürək nahiyəsindən bıçaqla zərbə vurub və onu körpünün üzərindən aşağı yamaca doğru atıb. M.Quliyev dünyasını dəyişib.

Qeyd edək ki, qətlə yetirən və qətlə yetirilən Ağdam rayonundan məcburi köçkün düşən şəxslərdir.